Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# REGİON

№ 61 (1189) 1 aprel - 2 aprel 2016-cı il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

# ŞAMAXI: HARDAN BAŞLANIR VƏTƏN?

(əvvəli ötən sayımızda)

**Rayonu Bakı-Qazax magistral yolu ilə birləşdirən 53 km-lik Şamaxı-Padarçöl avtomobil yolunun tikintisi 2015-ci ildə də davam etdirilmiş, yolun 48 km-nə asfalt-beton örtüyü vurulmuşdur. Bakı-Şamaxı-Yevlax magistral avtomobil yolunun rayon ərazisindən keçən hissəsinin Muğanlı-Şərədil istiqamətində xeyli işlər görülmüşdür. Yolun sağ və sol çiyinlərində beton küveytlər tikilmiş, Ağsu rayonundan Şərədil kəndinə qədər yeni asfalt-beton örtüyü vurulmuşdur. Çuxuryurd-Qaleybuğurd və Pirqulu-Dəmirçi yolunda əsaslı təmir və yenidənqurma işləri aparılmışdır. Dəmirçi-Lahıc yolunun yenidən çəkilməsinə başlanmışdır.**

> **“...Azərbaycan müasir dövlətdir, iqtisadiyyatımız bazar iqtisadiyyatı prinsipləri üzərində qurulubdur. Amma, eyni zamanda, biz sosial dövlətik. Sosial dövlət o deməkdir ki, insan amili, Azərbaycan vətəndaşı, onun maraqları, onun rifahı siyasətimizin mərkəzindədir”.**
>
> ***Azərbaycan Respublikasının Prezidenti***
> ***İlham Əliyev***

### *Rayonun mühüm iqtisadi göstəriciləri*

2015-ci ildə rayonda 170,1 milyon manat dəyərində ümumi məhsul buraxılışı olmuşdur. Qeyd olunan müddət ərzində rayonda əsas kapitala yönəldilən investisiyaların həcmi 46,6 milyon, tikinti-quraşdırma işlərinin həcmi 45,7 milyon, sənaye məhsulunun həcmi 4,8 milyon manat təşkil etmişdir. Ötən ildə pərakəndə əmtəə dövriyyəsi 195,3 milyon, əhaliyə göstərilən pullu xidmətlərin həcmi 44,4 milyon manat olmuşdur. İl ərzində orta aylıq əməkhaqqı əvvəlki ilə görə 12,6 manat artaraq 274,4 manat təşkil etmiş, əhalinin pul gəlirləri ilkin hesablamalara görə ötən illə müqayisədə 14,6 milyon manat artaraq 296,4 milyon manata çatmışdır.

Məlum olduğu kimi, Şamaxı əsasən aqrar rayon olmaqla onun iqtisadiyyatında kənd təsərrüfatı sahəsi mühüm yer tutur. Bu baxımdan heyvandarlıq da rayon iqtisadiyyatında aparıcı sahələrdən birini təşkil edir. Ötən ilin sonuna kimi rayonda iribuynuzlu mal-qaranın sayı 38171 başa, xırdabuynuzlu heyvanların sayı 192108 başa, quşların sayı isə 273670 başa çatdırılmışdır ki, bu da 2014-cü illə müqayisədə müvafiq olaraq iribuynuzlu heyvanların sayı 260 baş, xırdabuynuzlu heyvanların sayı 1538 baş, quşların sayı isə 4554 baş artmışdır. Həmin dövrdə ət istehsalı 4862,3 ton, süd istehsalı 23146 ton, yun istehsalı 377,7 ton və yumurta istehsalı 17,1 milyon ədəd olmuşdur ki, bu da otən ilin müvafiq dövrünə nisbətən ət istehsalı (diri çəkidə) 18,6 ton, süd istehsalı 134,7 ton, yun istehsalı 2,3 ton, yumurta istehsalı isə 490 min ədəd artmışdır. İl əzində arı ailələrinin sayı 5111 başa çatdırılmışdır ki, bu da ötən illə müqayisədə 251 ailə çoxdur.




Ötən ildə 2016-ci ilin məhsulu üçün 20037 ha payızlıq əkin aparılmışdır. 2015-ci ildə faktiki olaraq əkilmiş dənlilərin 19680 hektarı yığılmış, 43793,3 ton məhsul istehsal olunmuşdur. Hər hektardan məhsuldarlıq 22,3 sentner olmuşdur. ”Kənd təsərrüfatı və ərzaq məhsulları bazarının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 16 yanvar tarixli Sərəncamından irəli gələn vəzifələrin icrası ilə əlaqədar 2014-cü ildə rayonda iri taxılçılıq təsərrüfatının yaradılması məqsədilə 2723 hektar torpaq sahəsi ayrılaraq Kürdəmir Süd Emalı MMC-nə icarəyə verilmişdir.

Bundan əlavə Sabir qəsəbəsi ərazisində 1200 başlıq heyvandarlıq kompleksinin inşasına başlanılmışdır. Bu da gələcəkdə süd və ət məhsullarının bolluğuna səbəb olacaqdır.

Məlum olduğu kimi, keçən əsrin 70-80-ci illərində Şamaxı Azərbaycanın ən böyük üzümçülük rayonlarından birinə çevrilmişdi. Hazırda bu sahənin inkişafına xüsusi diqqət göstərilir. Bu baxımdan dövlət başçısının tapşırığı ilə hazırlanan və qəbul edilən ”2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı”nın bu sahənin yenidən dirçəldilməsində mühüm rolu olmuşdur. Hazırda Şamaxıda üzüm bağlarının sahəsi 1632,4 hektara çatdırılmışdır. Keçən il isə 10 hektar sahədə yeni üzümlük salınmışdır. Bundan əlavə Meysəri kəndinin ərazisində üzüm əkilməsi məqsədilə 330 hektar torpaq sahəsi ayrılmış və 40 hektar sahədə plantaj şumu çıxarılmışdır. Rayonda sahibkarlığın inkişaf etdirilməsi, dövlət tərəfindən bu sahəyə hərtərəfli dəstəyin göstərilməsi xüsusi diqqət mərkəzində



olmuşdur. 2015-ci ildə Sahibkarlığa Kömək Milli Fondun tərəfindən kənd təsərrüfatının inkişafı məqsədilə aqrar sektorda çalışan 56 sahibkara əvvəlki illərdə verilmiş kreditlərin qayıdışı hesabına 757,5 min manat məbləğində güzəştli kreditlər verilmiş, bunun nəticəsində rayonda 92 yeni iş yeri yaradılmışdır.

2015-ci ildə Şamaxıda sahibkarlıq fəaliyyəti ilə məşğul olanların sayı artaraq 2114 subyektə çatmış, rayon üzrə 1169 daimi iş yeri açılmışdır. Ümumi məhsul buraxılışında qeyri-dövlət sektorunun xüsusi çəkisi artmaqda davam etmişdir. Ümumiyyətlə, Dövlət Proqramlarının qəbulundan sonra Şamaxı rayonunda 12140 yeni iş yeri açılmışdır.

Doğrudan da respublikamızda kənd təsərrüfatı sahəsində ciddi islahatların aparılması, xüsusilə kənd əməkçilərinə dövlət qayğısının artması bu sahənin geniş potensiala malik olduğunu sübut etmişdir. Nazirlər Kabinetinin 2007-ci il 16 noyabr tarixli 181 nömrəli qərarı ilə təsdiq edilmiş Qaydalara uyğun olaraq 2015-ci ilin məhsulu üçün 2014-cü ilin payızında 8897 hektar sahədə aparılan buğda və çəltik səpininə görə 2597 istehsalçıya 355,9 min manat yardım verilmişdir. Bununla yanaşı Nazirlər Kabinetinin 15 fevral 2007-ci il tarixli 32 nömrəli qərarı ilə təsdiq edilmiş ”Kənd təsərrüfatı məhsulları istehsalçılarına əkin sahəsinin və çoxillik əkmələrin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına görə dövlət büdcəsinin vəsaiti hesabına yardımın verilməsi qaydaları”na uyğun olaraq 2015-ci ildə rayon üzrə 5277 istehsalçıya 984,8 min manat məbləğində yardım verilmişdir. ”Kənd təsərrüfatı məhsulları istehsalçılarının kənd təsərrüfatı texnikası ilə təminatına və heyvandarlığın inkişafına əlavə dəstək haqqında” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 noyabr tarixli Sərəncamı kənd təsərrüfatının inkişafına müsbət təsir göstərmişdir. Nazirlər Kabinetinin 01 avqust 2014-cü il tarixli 270 nömrəli qərarı ilə təsdiq edilmiş Qaydalara uyğun olaraq ”Aqrolizinq” ASC tərəfindən rayon üzrə kənd təsərrüfatı məhsulları istehsalçılarına 139,2 min manat dəyərində 930 ton mineral gübrə güzəştli şərtlərlə satılmışdır.

**(ardı gələn sayımızda)**

***Məzahir ƏHMƏDOĞLU***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ